# ELAN

“Ən sevdiyim kitab” adlı onlayn müsabiqəyə start verilir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin (UADM) fəaliyyət göstərdiyi rayonlarda (Bakı şəhərinin Xəzər rayonu, Saatlı, Sabirabad, Hacıqabul, Zərdab, Qəbələ, İsmayıllı, Göygöl, Goranboy, Ağdam, Zaqatala) yaşayan və təhsil alan 1-11-ci sinif şagirdləri arasında mütaliə bacarıqlarının inkişaf etdirilməsi və kitablara sevginin aşılanması məqsədilə onlayn müsabiqə keçirilir.

Müsabiqədə iştirak etmək istəyən hər bir məktəbli özü haqqında məlumatları (adı, soyadı, atasının adı, oxuduğu məktəb və sinif, videoda haqqında danışdığı kitabın müəllifi və adı) və videonu (videoda iştirakçı oxuduğu, sevdiyi bir kitab haqqında məlumat verərək, həmin kitabın əhəmiyyətini və başqa şəxslərə oxumaq üçün tövsiyə etməsinin səbəbini izah edəcək) **08-16 aprel 2024-**cü il tarixlərində regionmerkez@gmail.com elektron poçt ünvanına göndərə bilər.

Müsabiqəyə təqdim edilən videoların qəbulu dayandırıldıqdan sonra **30 aprel 2024-cü il** tarixinədək Şüvəlan, Saatlı, Sabirabad, Hacıqabul, Zərdab, Qəbələ, İsmayıllı, Göygöl, Goranboy, Ağdam, Zaqatala UADM-lərin “facebook” sosial şəbəkəsində **#mənimkitabxanam** etiketi ilə (həştəq) yerləşdiriləcək.

İzləyicilər tərəfindən hər rayon üzrə ən çox bəyənilən (bəyənilmə sayına görə) 5 nəfər qalib seçiləcək.

Qaliblərin müəyyənləşdirilməsi və elan edilməsi **13 may 2024-cü il tarixinə qədər** UADM-lərin “facebook” sosial şəbəkəsi vasitəsi ilə həyata keçiriləcək.

Müsabiqədə qalib gəlmiş iştirakçıların evlərində 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə qədər mükafat olaraq “Oxu guşəsi” (kitab rəfi, yazı masası, yazı masası üçün stul, kitablar və dəftərxana ləvazimatlarından ibarət) yaradılacaq.

Təşkilat Komitəsi:

📞 : **(+99451) 230-54-87**